# *PSİXOLOGİYA, YAŞ FİZİOLOGİYASI VƏ İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ*

UOT 316.6

***Səbinə Hikmət qızı Əlizadə***
*psixologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

## “SOSİAL İNTELLEKT” ANLAYIŞI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

***Сабина Хикмет гызы Али-заде***
*доктор философии по психологии*
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

## ПОНЯТИЕ «СОЦИАЛЬНЫЙ ИНТЕЛЛЕКТ» И ЕГО ОСОБЕННОСТИ

***Sabina Hikmat Alizada***
*doctor of philosophy in psychology*
*teacher of Azerbaijan State Pedagogical University*

## THE CONCEPT OF "SOCIAL INTELLIGENCE" AND ITS CHARACTERISTICS

**Xülasə.** Məqalədə “sosial intellekt” anlayışının xüsusiyyətlərindən bəhs edilir. Göstərilir ki, hər bir cəmiyyətin sosial-mədəni inkişafı onu təmsil edən fərdlərin sosial-mədəni fəallığı ilə şərtlənir. Çünki hər bir fərd özündə mənsub olduğu mədəni mühiti formalaşdıran qrupun səciyyəvi keyfiyyətlərini daşıyır.
***Açar sözlər:*** *intellekt, sosial intellekt, emosional intellekt, sosial zəka, ağıl yaşı*

**Резюме.** В статье рассматриваются особенности понятия «социальный интеллект». Показано, что социокультурное развитие любого общества обусловлено социокультурной активностью представляющих его индивидов. Потому что у каждого человека есть характеристики группы, которая формирует культурную среду, к которой он или она принадлежит. На протяжении своего развития он подвергается различным культурным влияниям и создает новую социальную структуру, основанную на индивидуальной структуре.
***Ключевые слова:*** *интеллект, социальный интеллект, эмоциональный интеллект, умственный возраст, IQ*

**Summary.** The article discusses the features of the concept of "social intelligence". It is shown that the socio-cultural development of any society is due to the socio-cultural activity of the individuals representing it. Because each person has the characteristics of a group that forms the cultural environment to which he or she belongs. Throughout its development, it is exposed to various cultural influences and creates a new social structure based on the individual structure.
***Keywords:*** *intellect, social intelligence, emotional intelligence, social intelligence, mental age, IQ,*

“İntellekt” mövzusu psixologiyada ən geniş yayılmış və daha çox araşdırılan, eləcə də ölçü metodlarının işlənildiyi bir sahədir. Hələ psixologiyanın ilk inkişaf dövrlərindən - XIX əsrin sonlarından başlayaraq tədqiqatçılar intellektin nə olduğunu aydınlaşdırmağa, ona izah verməyə, ölçməyə çalışıblar və buna xeyli dərəcədə nail olublar.

F. Qodfrua intellektin öyrənilməsi sahəsindəki cəhdləri ilk olaraq Ç. Darvinin yaxın qohumu F. Haltonun adı ilə bağlayır. *“Çox uzun müddətdir ki, intellektlə bağlı iki fikir var. Bunlardan birincisinə görə intellekt tamamilə irsi bir xüsusiyyətdir: ya insan ağıllı olaraq doğulur ya da yox. İkinci baxışa görə ağıl qavrayış sürəti və ya xarici stimullara reaksiya ilə əlaqələndirilir” (1, s. 370).*

Əslində hər bir normal insan intellektə malikdir. Ancaq bunun elmi mahiyyəti güzəran psixologiyasında verilmiş izahlardan fərqlənir. Bəzən biz, elm sahəsində çalışan insanlar da bu axına qoşularaq kiminsə haqqında “Onun ağlı

yoxdur", "Onun ağlı çatışmır", "Onun başı xarab olub" kimi ifadələr işlədirik, lakin bunun belə olmadığını da bilirik. Əslində, kiminsə intellektə malik olub-olmaması barədə qərar verərkən yanlış olmadığımıza əmin olmaq üçün onun intellektini ölçmək lazım gəlir. Psixologiyada intellekti ölçmənin ən operativ və səmərəli yolu isə - testləşdirmədir.

Biz hələ də intellektin nə əsaslarını, hə də quruluşunu tam mahiyyəti ilə izah edə bilməmişik. Bu suallara tam cavab tapılmamış müasir psixologiyada intellektlə bağlı yeni - "sosial intellekt" anlayışı yarandı. Bu anlayış artıq bir neçə onilliklərdir ki, dünya psixologiyasında, xüsusilə diaqnozlaşdırma, menecment, idarəetmə, insan resursları və s. sahələrin əsas probleminə çevrilib. "Sosial intellekt" - "özünü və başqalarını tanıma, cisimləri və ya səsləri bilmək qabiliyyəti kimi humanitar şərtlərin əvəzsiz bir hissəsidir. Bir çox cəhətdən araşdırılmağa dəyər.

Problemlə bağlı dünyada aparılmış araşdırmalarda sosial intellekt anlayışının ilkin izahının müəllifi kimi E. Torndaykın adı çəkilir. Belə ki, E. Torndayk 1920-ci ildə "ictimai ağıl" anlayışını irəli sürərək onu insan münasibətlərində müdrik olmağı anlamaq və idarə etmək bacarığı kimi izah etmişdir.

E. Torndayk mövzu haqqındakı məşhur məqaləsində diqqəti "düşüncə gücü nədir?" ("What is thought power?") sualına, məktəblə həyatda bacarığın fərqli şeylər olmasına yönəldir. *"Smit bildirir ki, intellekt - öyrənmə qabiliyyətidir. "Nəyi öyrənmək üçün?" soruşulduqda, "Hansısa bir şey öyrənmək" deyə bilərik". Latın dilini öyrənən oğlanlar bu sahədə rekord dərəcədə irəliləyə bilir. Eləcə də üzmək, konki sürmək və top oynamaq. Əgər "Mənə on beş dəqiqəlik reportaj verin" deyirəmsə, bəziləri bir anda insanın bəlkə də ləng və suallara cavab verməkdə çətinlik çəkdiyinə görə etiraz edə bilər. Problemi tapmaqda sürətli və əmin olmaq, avtomobillə bazarlıq etmək və ya bir qrup insanın xüsusiyyətlərini ölçmək fərqli anlayışlardır" (4, s. 227).*

Onun izahından belə aydın olur ki, intellekt əmsalı ilə sosial intellekt əmsalının eyni insanda fərqli olması təbiidir. Bunu şərtləndirən bir sıra amillər, xassə və xüsusiyyətlər vardır. Psixologiyada bu sualın cavabını ilk dəfə Q.Qardner verdi. O, insan intellektinin birmənalı, eyni meyarlarla ölçülməsinin, əslində yanlış olduğunu sübut etdi. Ancaq biz bilirik ki, Q. Qardnerə qədər, H.Y. Ayzenk (5), C. Gilford (7), R. Kettel (8) və b. intellektin quruluşunu izah etməyə çalışaraq bu sahədə əhəmiyyətli dərəcədə nəzəri (nəzəriyyələr) və praktik (ölçmə nümunələri – tapşırıq, test, sorğu) nümunələr işləyib hazırlayıblar.

R. Amthauer intellektin struktur testlərini yaratdı.

Müasir elm "intellektin ölçülməsi", "İQ əmsalı", "İQ göstəricisi" kimi anlayışlardan uzaqlaşdıraraq insan zəkasının ədalətli dəyərləndirilməsinə doğru getməkdə, insan intellektini daha geniş mənada dəyərləndirməkdədir. Fikrimizi M.A. Xolodnayanın izahı ilə genişləndirə bilərik. İntellektin müasir tədqiqatçılarından olan M.A. Xolodnaya "intellekt" anlayışına yeni və daha geniş yanaşmanın vacibliyini aşağıdakılarla əlaqələndirir (9, s. 7):

*Birincisi, intellektual istehsal hazırda iqtisadi inkişafın həlledici amillərindən biri indi ortaya çıxıb. Burada mülkiyyətin əsas forması – intellekt mülkiyyətidir. Bir çox analitiklərə görə, hazırda ayrı-ayrı dövlətlərin yeni biliklərin potensial daşıyıcıları, intellektual istedada malik insanlara sahib olmaq üçün apardıqları rəqabətdə dünya intellektinin qlobal sərhədlərindən danışa bilərik.*

*İkincisi, intellektual yaradıcılıq – insan mənəviyyatının, onun ruhi aləminin ayrılmaz bir hissəsi olmaqla sosial mexanizm kimi çıxış edərək cəmiyyətin inkişafında reqressiv xəttin əks istiqamətində durur.*

*Üçüncüsü, intellektin işi - insan azadlığı və onun şəxsi taleyini təmin etməyin qarantıdır. İnsan özünün intellektində apardığı təhlillərdə, baş verənlərin qiymətləndirilməsində nə qədər çox istifadə edirsə, başqalarını kənardan idarə etməyə də o qədər az cəhd göstərir.*

İQ üzərində araşdırmalar aparan tədqiqatlar üçün yeni yollar açıldı. H. Qardnerin "Ağılın quruluşu" əsəri nəşr olunduqdan sonra yalnız psixologiyada deyil, pedaqogikada, sosiologiyada, fəlsəfədə, iqtisadiyyatda, mədəniyyətdə, demək olar ki, insanla bağlı olan bütün sahələrdə insana münasibət dəyişdi. Bir çoxları öz peşələrini dəyişdilər. Digərləri istiqamətini, başqa biriləri münasibətini daha düzgün tərəflərə yönəltdilər. Çünki insan intellekti artıq rəqəmlərə sığışdırılan, konkret alətlərlə ölçülən fenomen deyildi. Onun insanın dünyaya münasibətində

fərqli pəncərələrdən baxmasına, fərqli dəyərləndirmələr aparmasına imkan yaradan çoxölçülü və çoxtərəfli bir quruluş olduğu təsdiqləndi. Pedaqoji elmlərdə bu tezis önə keçdi – “pis şagird yoxdur, pis müəllim var”. Artıq XX əsrin sonlarından etibarən məktəbdə bu tezisə xüsusi önəm verilir. Ancaq hələ də sosial intellektin xüsusiyyətləri məktəb təcrübəsində, yaxud istehsalatda yetərincə anlaşılmır, onunla bağlı müzakirələr elmi və akademik çevrələrlə məhdudlaşır.

Hazırda “sosial intellekt” anlayışının ən müasir tədqiqatçısı Daniel Goleman hesab olunur. “Emosional zəka” kitabının müəllifi olan D. Goleman bu sahədə bizi maraqlandıran məsələlərə xeyli aydınlıq gətirir. Onun fikrinə görə, bizim beynimiz digər beyinlərlə ünsiyyət qura bilmək üçün yaradılmışdır. Sosial zəka (intellekt) və emosional zəka (intellekt) bir-birilə sıx əlaqədə olan anlayışlardır (10).

Bəs sosial intellekt nədir və onun quruluşuna nələr daxildir?

Bəzi müəlliflər yanlış olaraq sosial intellekti yalnız marketinq strategiyaları baxımından, yəni izləyicilərin reklamlara münasibətinin müəyyən edilməsi əsasında qiymətləndirməyə üstünlük verirlər. Əslində isə, sosial intellekt, bir tərəfdən öz tərkibində ümumi intellekti (İQ) birləşdirir, digər tərəfdən onun özünəməxsus sosial (şəxsiyyət keyfiyyətləri ilə bağlı) quruluşlar yaradır. *“Şon Folenoya görə, sosial intellekt, fərdin ətraf mühiti ən yaxşı şəkildə başa düşmək və uğurlu sosial davranışa müvafiq reaksiya verməsi bacarığıdır. Sosial intellektin qabiliyyət, şifahi və qeyri-şifahi işarələri oxumaq, məlumatdan istifadə etmək, insanları məlumatlandırmaq kimi bir çox fərqli komponentə sahib olduğu müşahidə edilmişdir. Sosial qarşılıqlı əlaqələrdə bacarıqlı olan şəxslərin emosiyalarına nəzarət etmələrində də müvəffəq olduqları müəyyənləşdirilmişdir. Bundan əlavə, empatiya sosial zəka quruluşunun tərkib hissəsi olaraq ortaya çıxır. Yuxarıda sadalanan çoxsaylı tərifləri nəzərdən keçirmək vacibdir, çünki sosial intellektin operativ tərifi ilə bağlı hələ bir fikir mövcud deyildir”* (14).

Bu anlayış ətrafında dolaşan mülahizələrdə insanları qeyri-müəyyən nəticələrə yönəldən əsas səbəblərdən biri onun müxtəlif adlarla izah edilməsidir. Məsələn Azərbaycanın elmi mətbuatında onun “sosial intellekt”, “sosial zəka”, “emosional intellekt”, “emosional zəka” və digər bu kimi izahlarına rast gəlirik. Əslində, bütün fikirlər bu nəticədə ümumiləşməlidir: sosial intellekt – yalnız şəxsi həyatda deyil, sosial mühitdə, ailədə, təhsildə, işdə, ictimai yerlərdə münasib qaydada davranmanı, fəaliyyət göstərməni və ünsiyyət qurmanı ifadə edən, bir sözlə insanı sosiallaşma imkanları baxımından səciyyələndirən bir anlayışdır. “*Zəka və ya hazırki dövrümüzdə çox tez-tez rastlaşdığımız “IQ”, əslində anadangəlmə olan bir özəllikdir, lakin sosial zəka sonradan öyrənilərək qazanıla bilər, yəni o, inkişaf etdirilməsi mümkün olan zəka növüdür. Həmçinin sosial zəkası yüksək olan insanlar ətrafdakı insanlarla daha uyumlu olurlar. Ünsiyyəti idarəetmə qabiliyyətləri güclüdür. Başqa cür desək, sosial zəka insanların hiss və duyğularını, ruh hallarını, düşüncələrini doğru anlamaq, analiz etmək, dəyərləndirmək, eyni zamanda insanları idarə edə bilməkdir*” (15).

Bu anlayışı daha yaxşı izah etmək üçün tədqiqatçılar (A. Zimmerman və b.) onu autizmli uşaqların sosiallaşma imkanları, həmçinin ən müasir insan-robotları (Sonya) ilə müqayisə etməyi məqsədəuyğun bilirlər. Əgər autizmli uşaqların davranışlarına diqqət etsək, həqiqətən də sosial intellektin dəyərini və insan həyatındakı rolunu daha aydın anlaya bilərik. L.Ş. Əmrahlının izahında autizmli uşaqlarda sosial intellekt çatışmazlığını görə bilərik: *“Autizm” - daha çox sözlü danışma ilə bağlı problemlər də daxil olmaqla, ünsiyyət, davranış və sosiallaşmanın pozulmasında özünü göstərən, təkrarlanan hərəkətlərə meylli olan, dəyişmə, adaptasiya çətinlikləri ilə müşayiət edilən mürəkkəb nevroloji xəstəlikdir. Bu xəstəlik uşağın erkən inkişafını ləngitməklə yanaşı, onun bütün həyat sağlamlığının pozulmasına səbəb olur, mühitdən könüllü şəkildə özünü təcrid etməsinə güclü təsir göstərir”* (12, s. 5).

Sosial intellektdən, demək olar ki, məhrum olmuş bu uşaqlar motorikanın və nitqin pozulması ilə nəticələnən, uşağın sosial münasibətlərinin qurulmasında çətinliklərin yaranmasına səbəb olan psixi inkişaf ləngimələri mövcud olur. Pozğunluqlar geniş spektri əhatə edir: əlaqədən qaçmaq; tənhalıq; davranışın stereotip formalarına cəhdetmə; nitqin qeyri-adi inkişafı; hiss orqanlarına təsir edən sensor reaksiyalara qeyri-adekvat münasibət və s. *“Autizmdən əziyyət çəkən uşaqların ən spesifik cəhəti həmyaşıdlarla dostluq edə bilməməsi, ünsiyyətdən qaçmasıdır.*

*Onlar tənhalığa can atır, oyunlara maraq göstərmirlər. Bu uşaqlarda nitq ləng inkişaf edir, səs, söz əvəzində jestlərdən istifadə edirlər. Autizmli uşaqlar nadir hallarda başqasına təbəssümlə cavab verir, hamının gülüşlə qarşıladığı situasiyalarda susqunluq göstərirlər"* (12, s. 11).

Halbuki, sosial intellektə malik olan insanlarda bu xüsusiyyətlər tamamilə əks qütblüdür. Onlar həm əqli, həm də sosial imkanlar baxımından bir çox üstünlüklərə malikdirlər. Bü üstünlüklər özünü daha çox aşağıdakı keyfiyyətlərdə göstərir: özünüanaliz, emosional aydınlıq, özünüifadəetmə, müstəqillik, empatiya, sosial məsuliyyət, şəxsiyyətlərarası münasibətlərdə açıqlıq, emosional davamlılıq, daxili reaksiyalara nəzarət etmə, reallığı obyektiv qiymətləndirmə, uyğunlaşma, problemli situasiyaları həlletmə, özünüreallaşdırma, optimizm və həyatındakı xoşbəxt məqamları görüb dəyərləndirmək (15).

Beləliklə, gəldiyimiz nəticə budur ki, son illərdə emosional intellektin əhəmiyyəti elmdə və praktikada qəbul edilir. Bu mövzuda aparılan tədqiqatlara maraq gündən günə artır. Artıq "IQ" dediyimiz, biliyə əsaslanan göstərici, intellektual insana hansısa bir işə düzəlməyə imkan verirsə, bu onun həmin işdə qalıb davam edəcəyi anlamına gəlmir. Onun öz fəaliyyətində uğur qazanmasında sosial intellekti müəyyən bir əhəmiyyət kəsb edir. Nəzəriyyə və tətbiqetmə bilikləri baxımından kifayət qədər bacarıqlı bir çox insan, iş həyatında sosial intellektinin çatışmazlıqları ilə bağlı problem yaşaya bilər. Bu çatışmazlıqlar həm fərdi olaraq, həm də təşkilatlarda hədəflərə çatmaq üçün maneələr yarada bilir. Sosial intellekt anlayışının tədqiqi də bu baxımdan daha böyük əhəmiyyətə malikdir.

**Problemin aktuallığı:** İnsan resursları ilə işləyən qurumlarda müəssisənin fəaliyyətinin uğurlarını artırmaq üçün işçinin sosial intellektini ölçmə mexanizmlərinə, alətlərinə (testlər və s.), metodikalarına tələbat getdikcə artır.

**Problemin yeniliyi:** İntellektin araşdırılması yeni bir problemin - sosial intellekt problemini aktuallaşdırmış, onun əsas xüsusiyyətlərini öyrənməyi zəruri etmişdir. Sosial intellektin və onun xüsusiyyətlərinin öyrənilməsi intellekt nəzəriyyəsinin yeni istiqamətini təşkil edir.

**Problemin praktik əhəmiyyəti:** Sosial intellektin inkişaf etdirilməsi müxtəlif psixoloji pozuntuların qarşısının alınmasında və ya onların korreksiyasında mühüm əhəmiyyət kəsb edə bilər.

## Ədəbiyyat

1. Годфруа, Ж. Что такое психология. Том 1: Пер. с франц. -М.: Мир, -1992, -496 с.
2. Bəylərov, E.B. Şagirdlərin intellekt səviyyələrinin inkişaf etdirilməsində testlərdən istifadə: Ped. elm. nam. dis. avtoref. -Bakı: -2005, -23 s.
3. Əmrahlı, L.Ş. Psixoloji xidmət. III kitab. Psixodiaqnostika. -Bakı, MBM, -2016, -304 s.
4. Thorndike, E. L. "Intelligence and Its Uses," Harper's Magazine, Vol. 140, 1920, pp. 227-235.
5. Гарднер, Г. Структура разума: теория множественного интеллекта. Пер. с. Анг. -М.: - изд. И.Д.Виляме, -2007. - 512 с.
6. Айзенк, Г.Ю. Интеллект: Новый взгляд // Вопросы психологии. - 1995. - № 1. -111-131 с.
7. Гилфорд, Дж. Три стороны интеллекта. – М.: - Прогресс, -1965. -214 с.
8. Многофакторная личностная методика Р.Кеттелла: учеб.-метод. пособие/ А. Н. Капустина. - СПб.: Речь, -2006. - 99 с.
9. Холодная М.А. Психология интеллекта: Парадоксы исследования. 2-ое изд, перераб. и доп. СПб.: Питер, 2002. -272 с.
10. Göleman D. Sosyal Zeka-Insan Ilişgilerin Yeni Bilimi. İstanbul: - Varlıq Yayınları, 2006. - 263 s.
11. Емельянова, И.В., Кулагина, И.Ю. Особенности развитие социального интеллекта в младшем школьном возрасте // Психолого-педагогического исследования, 2020, Том 12, №2, -91-107 с.
12. Əmrahlı, L.Ş. Uşaq autizmi: psixoloji məsələlər. - Bakı: - NS, -2018, -234 s.
13. https://vsetesti.ru/443//Тест Р.Амтхауэра, Тест структуры интеллекта (TSI)
14. https://ru.wikipedia.org/wiki //Социальный интеллект
15. https://gulsafa.wordpress.com/category/genel/Sosial zəka nədir?, 2020,14 may.

**E-mail:**sabina.az@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **L.N. Qasımova**,
*psixol.ü.fəls.dok., dos.* **N.T. Rzayeva**
**Redaksiyaya daxil olub:** 22.09.2021.